# QULİYEV EMİN ƏLƏKBƏR OĞLU



Quliyev Emin 12 avqust 1976-cı ildə Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində doğulmuşdur. 1983-cü ildə 228 saylı orta məktəbə getmiş, 1993-cü ildə 273 saylı məktəbin onuncu sinfini bitirmişdir. 25 avqust 1994-cü ildə Qaradağ rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. O, Yalamada hərbi təlim keçdikdən sonra 776 saylı hərbi hissəyə göndərilir. O, idmanın bir neçə növü ilə məşğul olurdu. Bu da ona bütün döyüş tapşırıqlarını bacarıqla yerinə yetirməyə imkan verirdi. E.Quliyevin xidmət etdiyi batalyonun əsgərləri 1995-ci ilin fevral ayının əvvəllərində Şubanıya ezam olundu. Artıq bu ərəfədə ölkədə siyasi sabitlik pozulmuşdu. Bir dəstə hakimiyyət hərisi dövlət çevrilişinə can atırdı13-17 mart 1995-ci ildə çağırışlara tabe olmayan bu dəstənin zərərsizləşdirilməsi zamanı yaranan qarşıdurmada qəhrəmancasına həlak oldu. Məzarı doğulduğu Sahil qəsəbəsindəki Şəhidlər Xiyabanındadır. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Quliyev Emin Ələkbər oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakının Qaradağ rayonundakı 9 nömrəli xüsusi internat məktəbi Milli Qəhrəmanın adını daşıyır. Qaradağ rayonunda bir küçə və park onun adını daşıyır.